DOI: https://doi.org/10.36719/2789-6919/57/48-56

**Rəsul Həsənov**
Azərbaycan Texniki Universiteti
https://orcid.org/0009-0007-4652-4562
resulhesenov@hotmail.com

# Gənclərin məşğulluğu: problemlər və dövlət proqramları

## Xülasə

Məqalədə gənclərin məşğulluğu sahəsində mövcud vəziyyət, gənclər arasında işsizliyin səviyyəsi və bu problemin sosial-iqtisadi səbəbləri elmi baxımdan təhlil edilmişdir. Tədqiqat çərçivəsində gənclərin əmək bazarına inteqrasiyasına mane olan əsas amillər, o cümlədən təhsil sistemi ilə əmək bazarı arasında uyğunsuzluq, iş təcrübəsinin məhdudluğu, regional fərqlər və sosial mühitin təsiri araşdırılmışdır.

Eyni zamanda, Azərbaycan Respublikasında gənclərin məşğulluğunun artırılması məqsədilə həyata keçirilən dövlət proqramları və təşəbbüslərin effektivliyi statistik göstəricilər əsasında qiymətləndirilmişdir. Araşdırmanın əsas məqsədi gənclərin dayanıqlı məşğulluğunun təmin olunması üçün mövcud mexanizmlərin təkmilləşdirilməsi istiqamətində elmi əsaslandırılmış təkliflər irəli sürməkdir.

***Açar sözlər:*** *gənclər, məşğulluq, əmək bazarı, işsizlik, dövlət proqramları, insan kapitalı, iqtisadi inkişaf*

**Rasul Hasanov**
Azerbaijan Technical University
https://orcid.org/0009-0007-4652-4562
resulhesenov@hotmail.com

# Youth Employment: Problems and State Programs

## Abstract

This article examines the current state of youth employment, the level of unemployment among young people, and the socio-economic factors influencing this issue. The study analyzes the main barriers preventing young people from successful integration into the labor market, including the mismatch between the education system and labor market requirements, lack of work experience, regional disparities, and the influence of social and family factors.

Special attention is paid to the role of the state in promoting youth employment through active labor market policies. The effectiveness of youth employment programs implemented in the Republic of Azerbaijan is evaluated based on statistical indicators and policy analysis. The research aims to identify existing challenges and propose evidence-based recommendations to enhance the effectiveness of employment policies and ensure sustainable youth employment, thereby contributing to long-term socio-economic development.

***Keywords:*** *Youth, employment, labor market, unemployment, state programs, human capital, economic development*

## Giriş

Müasir dövrdə gənclərin məşğulluğu ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsini müəyyən edən əsas göstəricilərdən biri hesab olunur. Gənclərin əmək bazarında fəal iştirakı insan kapitalının səmərəli istifadəsinə, iqtisadi artımın sürətlənməsinə və sosial sabitliyin möhkəmləndirilməsinə mühüm töhfə verir. Gənc əhalinin məşğulluq imkanlarının məhdud olması isə işsizlik, sosial narazılıq, miqrasiya və beyin axını kimi problemlərin dərinləşməsinə səbəb olur.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Azərbaycan Respublikasında gənclər siyasəti dövlətin strateji prioritetlərindən biri kimi qəbul edilir və gənclərin cəmiyyətin inkişafında fəal iştirakını təmin etmək məqsədi daşıyır. Bu siyasət gənclərin sosial, iqtisadi, mədəni və siyasi sahələrdə inkişafına şərait yaratmaq üçün müxtəlif proqramlar, qanunvericilik aktları və layihələr vasitəsilə həyata keçirilir. Azərbaycanın gənclər siyasəti təhsil və peşə hazırlığı, işlə təminat, sağlam həyat tərzi və idman, mədəniyyət və yaradıcılıq, eləcə də siyasi fəallıq və vətəndaş cəmiyyəti sahələrinə yönəlib. Gənclərin yüksək ixtisaslı kadr kimi formalaşması üçün təhsil sisteminin təkmilləşdirilməsi və peşə hazırlığı proqramlarının genişləndirilməsi önəmlidir. Eyni zamanda, gənclərin məşğulluq səviyyəsinin artırılması, sahibkarlıq fəaliyyətlərinin dəstəklənməsi və yeni iş yerlərinin yaradılması dövlətin diqqətindədir. Gənclərin fiziki sağlamlığının qorunması və idman sahəsində fəaliyyətlərinin təşviqi, onların mədəni və yaradıcılıq potensialının inkişafı üçün də müxtəlif tədbirlər həyata keçirilir. Həmçinin, gənclərin ictimai-siyasi həyatda aktiv iştirakının təmin olunması, hüquq və azadlıqlarının müdafiəsi gənclər siyasətinin mühüm tərkib hissəsidir (Azərbaycanın gənclər siyasəti, 2025).

Qlobal iqtisadi böhrandan sonrakı dövrdə beynəlxalq əmək bazarında nisbi sabitliyin müşahidə olunmasına baxmayaraq, işsiz gənclərin sayının ildən-ilə artaraq 70 milyonu ötməsi, 15-24 yaşlı gənclər arasında işsizlik səviyyəsinin dünya üzrə orta işsizlik səviyyəsini 3 dəfə üstələyərək 13,1 faiz təşkil etməsi gənclərin məşğulluğunun təminatı məsələsinin aktuallaşmasına səbəb olub. Azərbaycanda da bu sahədə bir sıra mühüm addımlar atılmış, dövlət proqramları qəbul edilmişdir. Lakin müəyyən çətinliklər hələ də qalmaqdadır (Xələfov, 2022).

**Tədqiqat**

Müstəqillik dövründə Azərbaycanın gənclər siyasətinin formalaşması 1990-cı illərin əvvəllərinə təsadüf edir. 1993-cü ildən etibarən dövlət tərəfindən gənclərlə bağlı proqramların hazırlanmasına başlanılmışdır. 2001-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi və bu qanun gənclər siyasətinin hüquqi bazasını təşkil etdi (Azərbaycanın gənclər siyasəti, 2007). Azərbaycan Respublikasının "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" 5 may 2007-ci il tarixli Qanununa əsasən Azərbaycanda gənclər 14-29 yaşlarında hesab edilir. Ölkə əhalisinin 22,5 faizini təşkil edən gənclərə qayğı dövlət siyasətinin mühüm tərkib hissəsidir (Azərbaycan gəncləri, 2025).

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasətinin uğurla davam etdirilməsi, Gənclər və İdman Nazirliyinin yaradılması, gənclərin forumlarının keçirilməsi, "Gənclər siyasəti haqqında Qanun"un, "Azərbaycan Gəncliyi" Dövlət proqramlarının qəbul olunması,"2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi ölkəmizdə gənclərə göstərilən diqqət və qayğının, onlara verilən böyük önəmin bariz nümunəsidir (Dadaşov, 2017).

Azərbaycan Prezidenti İlham Əliyevin respublikamızın dinamik və uzunmüddətli inkişafını təmin edən uğurlu islahatlar proqramı ölkəmizdə işsizliyin kəskin şəkildə azalmasına, əmək bazarında sabitliyin əldə olunmasına imkan verməklə, gənclərin əmək bazarına çıxışının və məşğulluğunun artırılmasının hərtərəfli dəstəklənməsi, iqtisadiyyatın dayanıqlı inkişafında gənclərin iştirakının təmin edilməsində dövlət siyasətinin həyata keçirilməsinə şərait yaradıb. Bunun nəticəsidir ki, ölkədə gənclər arasında işsizlik səviyyəsi kəskin şəkildə azalmaqdadır. Azərbaycan gəncliyi ictimai həyatın və iqtisadiyyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilir. Gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər (Salmanlı, 2019).

*Gənclərin məşğulluğu: mövcud vəziyyət və problemlər.* Azərbaycanda gənclər arasında işsizlik problemi uzun müddətdir aktual olaraq qalmaqdadır. Statistik məlumatlar göstərir ki, son illərdə işsizlik səviyyəsində nisbi azalma müşahidə olunsa da, 15-24 yaş qrupunda işsizlik göstəriciləri hələ də ümumi işsizlik səviyyəsindən yüksəkdir. Bu vəziyyət əmək bazarının struktur xüsusiyyətləri və təhsil sisteminin tələblərə tam uyğunlaşmaması ilə izah olunur. Bəs, gənclər niyə işsiz qalıb?

Gənclərin işsiz qalmasının əsas səbəbləri arasında iş təcrübəsinin olmaması, peşə bacarıqlarının kifayət qədər inkişaf etməməsi, ixtisas seçiminin əmək bazarının real tələblərinə uyğun aparılmaması və regionlarda iş yerlərinin məhdudluğu xüsusi yer tutur. Universitet məzunlarının əhəmiyyətli

*ELMİ TƏDQİQAT* **Beynəlxalq Elmi Jurnal. 2026 / Cild: 6 Sayı: 4 / 48-56** **ISSN: 3104-4670**
*SCIENTIFIC RESEARCH* **International Scientific Journal. 2026 / Volume: 6 Issue: 4 / 48-56** **e-ISSN: 2789-6919**

hissəsi təhsil aldıqları sahə üzrə iş tapmaqda çətinlik çəkir və nəticədə, öz ixtisaslarından kənar sahələrdə fəaliyyət göstərməyə məcbur qalırlar. Bundan əlavə, ailə mühiti, sosial status və şəxsi motivasiya kimi amillər də gənclərin məşğulluq imkanlarına təsir göstərir. Valideynlərin həddindən artıq himayəsi, peşə seçimində məcburetmə və gənclərin müstəqil qərarvermə bacarıqlarının zəif inkişafı işsizlik riskini artıran faktorlar sırasındadır.

İşsiz gənc universitet məzunları iş axtarışı prosesində qarşılaşdıqları ən böyük problemin "təcrübə tələbi" olduğunu söyləyirlər. Belə ki, universiteti bitirən gənclər işləmək üçün hansı iş yerinə üz tutsalar, onlardan təcrübə tələb olunur. Heç kim anlamır ki, axı bu gəncdir, universiteti daha yeni bitirib. Bu halda o harada təcrübə qazana bilər?! Nəticədə, əksər iş yerləri gənclərə üz döndərir. Onların işlə təmin olunması dövlətin prioritet istiqamətlərindən biridir. Bununla belə, aşağıdakı problemlər müşahidə olunur:

Araşdırmalar göstərir ki, gənclərin işsiz qalmasının səbəblərindən birincisi bacarıqlarını sınamamalarıdır. Universitet yaşlı gənclərin böyük bir hissəsi, əslində, hansı peşəyə yiyələnmək istədikləri və hansı peşəyə daha çox meyilli olduqlarından xəbərsizdirlər. Bir çox gənclər bu mühüm suallara hələ aydın cavab verə bilmədən ixtisas seçimi edirlər. Lakin unutmaq olmaz ki, istedad, bacarıq və şəxsiyyətə uyğun peşə seçimi uğur və xoşbəxtliyi, yəni həyat keyfiyyətini şərtləndirəcək ən mühüm məsələlərdən biridir. Uğurlu hiss etdiyimiz, sevdiyimiz və səhər sevinclə getdiyimiz bir işdə çalışmaq çox böyük şansdır. Səhv seçim etdikdə, oxuduqları ixtisasa olan maraqlarını itirirlər. Yanlış seçim etdikdən sonra şagird həm dərsə, həm də peşəyə olan marağını itirməyə başlayır. Bildiyimiz kimi, tələbələr universitet dövründə kifayət qədər təcrübə qazanmırlar (Vəli, 2023). Ölkədə təxminən 2.3 milyon nəfər, yəni əhalinin 22.7%-i gənclərdir. Son illərdə gənclər arasında (15-24 yaş) işsizlik nisbəti belədir: 2024-cü il üçün 13.72%. 2023-cü il üçün gənclər arasında işsizlik 13.55% idi. 2025-ci ilin fevralında rəsmi məlumatda – 14-29 yaşlı gənclər arasında işsizlik nisbətinin 9.2% olduğu bildirilirdi.

**Qrafik 1.**




**Mənbə:** Azərbaycan gəncləri, 2025.

Yuxarıdakı qrafikdən göründüyü kimi, 2024-cü il üçün qeydiyyatda olan işsiz gənclərin sayı 54,535 nəfər, 2023-cü il üçün isə 63,273 nəfər təşkil etmişdir.

**Qrafik 2.**




**Mənbə:** Azərbaycan gəncləri, 2025.

2010-2019-cu illər dövründə gənclər arasında işsizlik davamlı şəkildə azalıb (14.6 % → 11.4 %). 2020-ci ildə pandemiya səbəbi ilə göstərici kəskin artıb (15.13 %). 2021–2024 dövründə isə yenidən tədrici azalma müşahidə olunur.

**Cədvəl 1.**
Gənclərin İşsizlik Səviyyəsi (15–24 yaş), 2010–2024

| İl | Gənclər işsizlik səviyyəsi (%) |
|---|---|
| **2010** | 14.64 % |
| **2011** | 14.52 % |
| **2012** | 13.97 % |
| **2013** | 13.48 % |
| **2014** | 13.42 % |
| **2015** | 13.36 % |
| **2016** | 12.91 % |
| **2017** | 12.37 % |
| **2018** | 11.62 % |
| **2019** | 11.47 % |
| **2020** | 15.13 % |
| **2021** | 14.69 % |
| **2022** | 13.81 % |
| **2023** | 13.75 % |
| **2024** | **13.72 %** |

**Mənbə:** müəllif tərəfindən hazırlanmışdır

2010-2019-cu illər dövründə gənclər arasında işsizlik davamlı şəkildə azalıb (14.6 % → 11.4 %). 2020-ci ildə pandemiya səbəbi ilə göstərici kəskin artıb (15.13 %). 2021-2024-cü illər dövründə yenidən tədrici azalma müşahidə olunur. Hansı ixtisasın yaxşı iş imkanları yaradacağını öncədən anlaya bilmirlər. Gənclər gələcəkdə hansı işlərin daha perspektivli olacağını öncədən bilmirlər. Ölkədə universiteti bitirən gənclərin çoxu iş tapa bilmədiyi üçün öz sahəsindən kənarda müxtəlif sahələrdə işləməli olur. Digər bir qisim isə iş tapmaq ümidini itirir. İş tapmamağın səbəbləri nələrdir? Gənclərdə işsizlik bizdə olduğu kimi bütün dünyada da böyük problemdir. İşi olmadığını, iş tapa bilmədiklərini deyənlərlə yanaşı, universitet məzunları arasında işsiz qalanlar da var (Vəli, 2023).

*İşə müraciət edərkən nəzərə alınmalı olan məqamlar aşağıdakılardır:*

- Müraciət etdiyiniz işin işəgötürən meyarlarına uyğun olduğundan əmin olaraq şirkəti araşdırmalısınız; - Təcrübə əskikliyi: işəgötürənlər tez-tez təcrübəli işçilərə üstünlük verirlər ki, bu da yeni məzunların işə qəbulunda maneə yaradır; - Təhsil və əmək bazarı arasındakı uyğunsuzluq: ali təhsil müəssisələrinin məzunları ilə əmək bazarının tələbləri arasında uyğunsuzluq mövcuddur. Bu, gənclərin əldə etdikləri ixtisasların bazarda tələb olunmaması ilə nəticələnir; - İqtisadi amillər: pandemiya kimi qlobal hadisələr bəzi sektorların fəaliyyətini məhdudlaşdıraraq işsizliyin artmasına səbəb olub; - Regional imkanların məhdudluğu: Bölgələrdə iş imkanlarının məhdudluğu gənclərin paytaxta və ya xarici ölkələrə miqrasiyasına səbəb olur; - Özünüməşğulluq və sahibkarlıq bacarıqlarının zəif inkişafı; - Sosial gərginlik: işsiz gənclər arasında sosial narazılıq və psixoloji problemlər artmaqdadır; - Beyin axını: işsizlik səbəbindən yüksək ixtisaslı gənclər xaricə köç etməyi seçirlər ki, bu da ölkənin intellektual potensialının itirilməsinə gətirib çıxarır; - Cinayətkarlıq riskinin artması: uzunmüddətli işsizlik bəzi gəncləri qeyri-qanuni fəaliyyətlərə yönəldə bilər; - Gənclərin işsiz qalmasında ailə və şəxsi amillərin rolu: Azərbaycanda gənclərin işsizlik problemi yalnız iqtisadi və sosial amillərlə məhdudlaşmır. Bu məsələdə ailə üzvlərinin təsiri və gəncin özünün atdığı və ya atmadığı addımlar da mühüm rol oynayır. Gənclərin iş tapmaqda qarşılaşdıqları çətinliklər təkcə əmək bazarındakı problemlərlə deyil, onların böyüdükləri mühit, ailə tərbiyəsi, şəxsi motivasiya və seçimləri ilə də sıx bağlıdır; - Ailə üzvlərinin işsizliyə təsiri: ailə,

insanın formalaşmasında və gələcək həyatına yön verməsində mühüm rol oynayır. Gəncin həyat yolu və karyera seçimi çox vaxt ailənin yanaşmalarından və sosial statusundan asılı olur. Burada müxtəlif aspektlərə toxunmaq mümkündür: Valideynlərin həddindən artıq himayəsi: Bəzi valideynlər övladlarını həddindən artıq qorumağa çalışır və onları sərbəst qərar verməyə buraxmır. Bu, gənclərin müstəqil qərar vermək bacarığını azaldır, öz problemlərini həll edə bilməməsinə və iş tapmaq üçün yetərincə təşəbbüs göstərməməsinə səbəb olur. Məsələn: Ailə üzvləri "Qız uşağı işə getməz", "Sənə uyğun iş tapılana qədər gözlə" kimi fikirlərlə gəncin erkən yaşda iş bazarına qoşulmasına mane ola bilər. Valideynlər övladlarının müstəqil hərəkət etməsinə icazə vermədikdə, gənclər qərarsız və təşəbbüskar olmayan bir fərd kimi formalaşır.

Valideynlərin sosial statusunun təsiri: ailənin sosial statusu və maddi imkanları gəncin iş tapmasına və ya işsiz qalmasına təsir edə bilər. Maddi cəhətdən təminatlı ailələrin övladları bəzən iş axtarmağa tələsmir və uzun müddət asılı vəziyyətdə qalırlar. Məsələn: Valideynləri imkanlı olan gənclər bəzən real əmək bazarında təcrübə qazanmadan yüksək maaşlı işlərə başlamaq istəyir, bu da onların işsiz qalmasına səbəb olur. Əksinə, maddi durumu zəif olan ailələrin övladları erkən yaşda işləməyə məcbur qaldıqları üçün təhsildən geri qalır və gələcəkdə yaxşı iş tapmaqda çətinlik çəkirlər.

Peşə seçimində valideynlərin məcburiyyəti: Azərbaycanda ənənəvi olaraq bəzi ailələr övladlarını öz istədikləri peşəyə yönləndirməyə çalışır. Bu, gəncin maraq dairəsinə və bacarıqlarına uyğun olmayan sahəyə yönəlməsinə səbəb ola bilər. Məsələn: Valideynlərin "Mütləq həkim olmalısan" və ya "Hüquq fakültəsinə daxil olmalısan" kimi təkidlərindən sonra, gənc sevmədiyi sahəni seçə bilər və nəticədə nə iş tapmaqda uğur qazana bilər, nə də özünü peşəsində xoşbəxt hiss edər. Əgər valideynlər övladlarının bacarıqlarını nəzərə almadan seçim edirsə, həmin gəncin əmək bazarında rəqabət aparması çətinləşir (Ramazanova, 2025).

*İşsizliyin cəmiyyətə təsiri.* Azərbaycan Respublikasında son illərdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir.

Ölkədə aparılan islahatlar iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dinamik iqtisadi inkişaf təmin edilmişdir. Regionların iqtisadi inkişafının təmin edilməsi, əhalinin sosial rifahı və həyat səviyyəsinin daha da yüksəldilməsi, ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafı istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Əhalinin məşğulluğunu təmin etmək məqsədilə yeni iş yerləri, müəssisələr, infrastruktur obyektləri və s. yaradılmışdır.

2024-cü ildə ölkədə işçi qüvvəsinin sayı 2010-cu illə müqayisədə 724,7 min nəfər artaraq 5312,1 min nəfər olmuş, onların da 5029,8 min nəfərini iqtisadiyyatda məşğul olanlar, 282,3 min nəfərini isə işsiz əhali təşkil edir.

Son illər ölkə iqtisadiyyatında aparılan islahatlar nəticəsində əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərə nail olunmuşdur. Belə ki, 2010-cu ildə dövlət sektorunda çalışanların xüsusi çəkisi iqtisadiyyatda məşğul olanların ümumi sayının 26,4 faizini təşkil edirdisə, 2024-cü ildə bu göstərici 20,9 faizə enmiş, qeyri-dövlət sektorunda işləyənlərin sayı isə bu dövrdə 1,2 dəfə artmışdır.

2024-cü ildə istehsal sahələrində (kənd təsərrüfatı və balıqçılıq, sənaye, tikinti) 2594,5 min nəfər və ya iqtisadiyyatda məşğul olanların ümumi sayının 51,6 faizi qədər işçi çalışmış, xidmət sahəsində isə məşğul olanların sayı 2435,3 min nəfər olmuşdur ki, bu da məşğul əhalinin 48,4 faizini təşkil emişdir. 2024-cü ildə iqtisadiyyatda məşğul olan əhalinin ümumi sayından 1780,3 min nəfəri və yaxud 35,4 faizi muzdla işləyənlərin payına düşmüşdür. Muzdla işləyənlərin əksəriyyəti iri və orta müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur. 2010-2024-cü illər ərzində muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 3,0 dəfə artaraq 1009,4 manat təşkil etmişdir (Azərbaycan gəncləri, 2025).

*İşsizliyin cəmiyyətə təsiri xüsusi ilə gənclərə aşağıdakı formada əks olunmaqdadır:*

*Sosial bərabərsizlik və imkanların məhdudluğu.* İşsiz qalan gənclər maddi çətinliklər çəkir və sosial status baxımından geridə qala bilirlər. Bu, daha da böyük sosial bərabərsizliyə gətirib çıxarır, çünki bəzi ailələrin imkanları geniş olduğu üçün onların övladları daha tez iş tapır, digərləri isə uzun müddət işsiz qalır.

*Gənclərin beyin axını və miqrasiya problemi.* İş tapmaqda çətinlik çəkən gənclər başqa ölkələrə miqrasiya etməyə üstünlük verirlər. Bu isə ölkədə təcrübəli və gənc kadrların azalmasına və ölkənin iqtisadi inkişaf tempinin zəifləməsinə səbəb olur. Azərbaycan üçün xaricə işləmək üçün gedən IT mütəxəssisləri, həkimlər və mühəndislər buna misaldır.

*Ailə qurma və cəmiyyətə inteqrasiya problemləri.* İşsiz gənclər evlənmək və ailə qurmaq qərarında tərəddüd edirlər, çünki sabit gəlirləri olmadığı üçün ailə məsuliyyətini üzərlərinə götürə bilmirlər. Bu isə ölkədə doğum səviyyəsinin azalmasına və sosial strukturun zəifləməsinə gətirib çıxara bilər.

*Depressiya və motivasiya problemləri.* Uzun müddət işsiz qalan gənclərdə özgüvən azalır, onlar depressiyaya düşə bilər və həyatdan məmnuniyyət hissi aşağı düşür. Cəmiyyətə faydasız olduqlarını düşündükləri üçün bəzən aqressiv və ya sosial həyatdan uzaqlaşmış olurlar.

*Gənclərin cinayətkarlığa yönəlməsi.* İşsizliyin yüksək olduğu yerlərdə cinayətkarlıq riski artır. İş tapa bilməyən bəzi gənclər asan qazanc yollarına yönəlir, fırıldaqçılıq, narkotik ticarəti və digər qeyri-qanuni fəaliyyətlərə meyilli ola bilirlər.

*Ailədaxili münasibətlərə təsiri.* İşsiz gənclər valideynləri ilə münasibətlərdə problemlər yaşayır. Onların evdə uzun müddət qalması, valideynlərdən maddi asılılığı və psixoloji gərginliyi ailə daxilində münaqişələrə səbəb ola bilər (Ramazanova, 2025).

*Dövlət proqramları, problemlər və təşəbbüslər.* Ölkə gənclərinin hərtərəfli inkişafı, onların üzləşdiyi problemlərin həll edilməsi, o cümlədən, gənclərin layiqli məşğulluğunun təmin edilməsi ölkə başçısı cənab İlham Əliyevin hər zaman diqqət mərkəzindədir (“Gənclərin Məşğulluğu Proqramı”nın təqdimatı, 2022). Gənclərin işsizlik probleminin həlli üçün təhsil sisteminin əmək bazarının tələblərinə uyğunlaşdırılması, regionlarda iqtisadi inkişafın təşviqi və gənclərin peşə təcrübəsi qazanmasına dəstək proqramlarının həyata keçirilməsi vacibdir (Ramazanova, 2025). Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi gənclər siyasətinin həyata keçirilməsində əsas dövlət qurumudur. Nazirlik tərəfindən gənclərin məşğulluq proqramları, innovasiya və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, regional və beynəlxalq gənclər forumlarının təşkili, eləcə də idman və sağlamlıq layihələri kimi müxtəlif proqramlar həyata keçirilir (Azərbaycanın gənclər siyasəti, 2007).

Bu xüsusda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə gənclərin məşğulluğunu təmin etmək, eləcə də işə düzəlməkdə çətinlik çəkən gənclər üçün əlavə iş yerləri yaradan işəgötürənləri həvəsləndirmək məqsədilə, gənclərin işə cəlb edilməsini nəzərdə tutan layihələr çərçivəsində gənclərə ödəniləcək əmək haqqının qismən maliyyələşdirilməsi Fondun vəzifələri sırasına daxil edilmişdir.

Bununla əlaqədar, Gənclər Fondu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti ilə birlikdə 29 yaşına qədər olan orta-ixtisas təhsil müəssisələri və ali təhsil müəssisələrinin məzunları üçün Gənclərin Məşğulluğu Proqramına start verir. Proqramın həyata keçirilməsi gənclərin uğurlu karyera planlaşdırılmasına (ixtisas üzrə iş tapmaq), əlavə iş (xüsusilə də regionlarda) yerlərinin yaradılmasına, gənc müraciətçinin ilk iş təcrübəsini əldə etməsinə, əmək bazarında rəqabətin artırılmasına töhfə verəcəkdir. Proqram çərçivəsində işə cəlb olunan gənclərlə minimum 1 illik əmək müqaviləsinin bağlanması və əmək haqqının müəyyən müddətə qismən Fond tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulur (Gənclər fondundan işsiz gənclərə çağırış, 2019).

*Son illər Azərbaycan dövləti gənclərin məşğulluğunun artırılması məqsədilə bir sıra proqram və layihələr həyata keçirmişdir:*

*Dövlət proqramları:* “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı çərçivəsində gənclərin məşğulluğunun artırılması, onların peşə hazırlığı və təhsil səviyyəsinin yüksəldilməsi istiqamətində müxtəlif layihələr həyata keçirilib.

*Məşğulluq yarmarkaları:* Dövlət Məşğulluq Agentliyi tərəfindən mütəmadi olaraq əmək yarmarkaları təşkil edilir. Bu yarmarkalarda işaxtaran gənclər müxtəlif müəssisələrin təqdim etdiyi vakansiyalarla tanış ola və işəgötürənlərlə birbaşa əlaqə qura bilərlər.

*Elektron əmək birjası:* Dövlət Məşğulluq Agentliyinin Elektron Əmək Birjası platforması vasitəsilə gənclər onlayn şəkildə mövcud vakansiyalarla tanış ola və müraciət edə bilərlər. Bu platforma işaxtaranların və işəgötürənlərin bir araya gəlməsini asanlaşdırır.

*Peşə təhsili və təlimləri:* Gənclərin əmək bazarının tələblərinə uyğun peşə bacarıqlarına yiyələnməsi üçün müxtəlif peşə təhsili və təlim proqramları təşkil olunur. Bu təlimlər gənclərin rəqabət qabiliyyətini artırmağa yönəlib.

*Gənclərin dayanıqlı məşğulluğu proqramı:* Dövlət Məşğulluq Agentliyi və Gənclər Fondu tərəfindən birgə həyata keçirilən bu proqram çərçivəsində işsiz və işaxtaran gənclərin məşğulluğunun təmin edilməsi məqsədilə müxtəlif layihələr icra olunur. Proqram çərçivəsində gənclərə peşə hazırlığı, təcrübə proqramları və işə düzəlmə imkanları təqdim edilir (Ramazanova, 2025). Ötən il Dövlət Məşğulluq Agentliyi tərəfindən 72,6 min gənc işlə təmin edilib, 2500 gənc üçün kiçik bizneslər qurulub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən bu istiqamətdə aparılan işlərin davamı olaraq ötən il daha 72,6 min gənc münasib işlərlə təmin edilib.

Özünüməşğulluq proqramı gənclərin də kiçik sahibkarlığa çıxışında mühüm rola malikdir. Son bir ildə bu proqram çərçivəsində daha 2500 gəncə aktivlər verilməklə onlar üçün müxtəlif iqtisadi fəaliyyət sahələri üzrə kiçik bizneslər qurulub. 9500-dək gənc isə Agentliyin peşə hazırlığı kurslarına cəlb edilərək müasir əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnib.

Gənclərin müasir əmək bazarında tələb olunan peşələr barədə məlumatlı olmalarına, düzgün peşə seçiminə dəstək göstərilməsi də diqqətdə saxlanır. Ötən il bu məqsədlə böyük əksəriyyəti gənclər olan 343 min şəxs peşəyönümü xidmətlərlə əhatə olunub.

Habelə paytaxt və bölgələrimizdə gənclərin düzgün peşə seçiminə, onların karyera istiqamətində doğru addım atmalarına dəstək olmaq məqsədilə "Peşə öyrən, gələcəyini qur!" devizi ilə "PeşəFest" tədbirləri uğurla davam etdirilib.

Gənclərin məşğulluğunun təminatına dəstək üçün Agentlik Bakı və bölgələrdə gənclər üçün vebinarlar, konfranslar, karyera sərgiləri və yarmarkalar təşkil olunur, "Alo karyera" dəstək xidməti fəaliyyət göstərir. Gənclər bu tədbirlərdə karyera planlaması, düzgün ixtisas/peşə seçimi, iş axtarışı yolları, CV, istək məktubunun hazırlanması, müsahibəyə hazırlıq və s. mövzular üzrə məlumatlandırılır.

Son illərdə Dövlət Məşğulluq Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin birgə dəstəyi ilə "Səyyar kofe evləri" layihəsi də icra olunub ki, layihə çərçivəsində barista sahəsində çalışmaq istəyən gənclər üçün səyyar kofe satışı üzrə kiçik bizneslər qurulub (Dövlət Məşğulluq Agentliyi, 2026).

Dövlət başçısının müvafiq fərmanları əsasında Gənclər və İdman Nazirliyi yenidən qurulmuş, Gənclər Fondu yaradılmış, "Azərbaycan Gəncliyi Dövlət Proqramı" qəbul olunmuşdur ki, bütün bunlar da ölkəmizdə gənclər siyasətinin inkişafına təkan vermiş, gənclərin ictimai təşəbbüslərinə, yerli və beynəlxalq miqyaslı layihələrinə dəstək vermişdir. Bundan başqa, "Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilmişdir (Yaqublu, 2025).

## Nəticə

Aparılan tədqiqatın nəticələri göstərir ki, gənclərin məşğulluğu problemi müasir Azərbaycan cəmiyyətində sosial-iqtisadi inkişaf baxımından aktual olaraq qalmaqdadır. Statistik göstəricilər və mövcud vəziyyətin təhlili sübut edir ki, son illərdə dövlət tərəfindən bu sahədə mühüm proqram və tədbirlər həyata keçirilsə də, gənclərin əmək bazarına inteqrasiyasında müəyyən çətinliklər hələ də mövcuddur. Xüsusilə ali və orta-ixtisas təhsili almış gənclərin iş təcrübəsinin məhdudluğu, təhsil sistemi ilə əmək bazarının tələbləri arasındakı uyğunsuzluq, regionlarda məşğulluq imkanlarının zəifliyi və peşə yönümünün kifayət qədər inkişaf etməməsi işsizliyin əsas səbəbləri kimi çıxış edir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, gənclər arasında işsizliyin uzunmüddətli xarakter alması sosial gərginliyin artmasına, beyin axınına, psixoloji problemlərə və cəmiyyətə inteqrasiya prosesinin zəifləməsinə səbəb olur. Dövlət tərəfindən icra olunan "Gənclərin məşğulluğu üzrə Dövlət Proqramı", "Özünüməşğulluq Proqramı", startap təşviqləri, peşə təhsili və məşğulluq yarmarkaları

gənclərin əmək bazarına çıxış imkanlarını genişləndirsə də, bu tədbirlərin əhatə dairəsinin və effektivliyinin daha da artırılmasına ehtiyac duyulur.

Mövcud problemlərin aradan qaldırılması və gənclərin dayanıqlı məşğulluğunun təmin edilməsi məqsədilə aşağıdakı təkliflərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

1. Təhsil proqramları əmək bazarının tələblərinə uyğunlaşdırılmalı, ali və orta-ixtisas təhsilində praktik hazırlıq və istehsalat təcrübələrinin payı artırılmalıdır.
2. Gənclərin ilk iş təcrübəsi əldə etməsini asanlaşdırmaq məqsədilə dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində ödənişli staj mexanizmləri genişləndirilməlidir.
3. Regionlarda gənclərin məşğulluğunu artırmaq üçün qeyri-neft sektoru, aqrar sahə və yerli sahibkarlıq təşəbbüsləri maliyyə və institusional baxımdan stimullaşdırılmalıdır.
4. Peşə yönümü və karyera planlaşdırılması mexanizmləri erkən mərhələdən sistemli şəkildə tətbiq edilməlidir.
5. Özünüməşğulluq və startap fəaliyyətləri üçün gənclərə yönəlik maliyyə, vergi və mentorluq dəstəyi gücləndirilməlidir.
6. Gənclərin rəqabət qabiliyyətinin artırılması məqsədilə rəqəmsal və texnoloji bacarıqlar üzrə qısamüddətli təlim proqramları genişləndirilməlidir.
7. Dövlət məşğulluq proqramlarının nəticəyönümlü monitorinq və qiymətləndirmə mexanizmləri təkmilləşdirilməlidir.
8. Pilot layihə: Gənclərin şəhər abadlıq işlərinə cəlb olunması. Layihə dövlət büdcəsi hesabına maliyyələşdirilərək büdcəyə əlavə vəsait daxil olunması yolu ilə həyata keçirilir. Bu vəsait gənclərin əməkhaqqı və layihə xərclərinə sərf olunur.
9. Peşə hazırlığı: Gənclərin istənilən peşəyə hazırlığı üçün tədris kurslarına dövlət, yerli şirkətlər və bələdiyyələr tərəfindən maddi dəstək göstərilməsi.

Nəticə etibarilə, gənclərin dayanıqlı məşğulluğunun təmin edilməsi üçün dövlət, təhsil sistemi və əmək bazarı institutları arasında əlaqəli və sistemli əməkdaşlığın qurulması zəruridir. Bu yanaşma gənclərin potensialından səmərəli istifadəyə və ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafına töhfə verəcəkdir.

## Ədəbiyyat

1. Azərbaycan gəncləri. (2025). *Statistik məcmuə. Dövlət Statistika Komitəsi.* https://www.stat.gov.az/source/demoqraphy/ay/
2. Azərbaycanın gənclər siyasəti. (2025). Vikipediya, Azad Ensiklopediya. https://az.wikipedia.org/wiki/
3. *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı.* www.stat.gov.az
4. Dadaşov, M. (2017). *Balakənli gənc: Yeni Dövlət Proqramının qəbulu gənclərə verilən yüksək önəmin bariz nümunəsidir. AZƏRTAC*, 19 sentyabr 2017. https://azertag.az/xeber/1095034
5. Dövlət Məşğulluq Agentliyi. (2026). *Ötən il Dövlət Məşğulluq Agentliyi tərəfindən 72,6 min gənc işlə təmin edilib, 2500 gənc üçün kiçik bizneslər qurulub*. https://dma.gov.az/media/xeberler/oten-il-dovlet-mesgulluq-agentliyi-terefinden-726-min-genc-isle-temin-edilib-2500-genc-ucun-kicik-biznesler-qurulub
6. Gənclər Fondu. (2019). Azərbaycan Respublikasının Gənclər Fondu işsiz gənclərin məşğulluğunun artırılması proqramını elan edir. *Azedu.az*, 15 aprel. https://azedu.az/universitetler/13628/gencler-fondundan-ishsiz-genclerechaghirish/
7. *"Gənclərin Məşğulluğu Proqramı"nın təqdimatı*. (2007). Azərbaycan Gənclər Fondu rəsmi internet səhifəsi. https://youthfoundation.az/88590/
8. Xələfov, B. (2022). Azərbaycanda gənclərin məşğulluq siyasəti. *Sabahinfo.az*, 3 aprel. https://www.sabahinfo.az/posts/detail/azerbaycanda-genclerin-mesgulluq-siyaseti-1648983500
9. Ramazanova, S. (2025). *İşsizlik problemi: Gənclər və sosial təsirlər.* https://olaylar.az/news/sosial/586653
10. Salmanlı, R. (2019). *Azərbaycan gənclərin məşğulluğunun dəstəklənməsində çox ölkələrə nümunədir*. 25 aprel. https://www.azerbaijan-news.az/az/posts/detail/192378

11. Vəli, A. (2023). *Gənclər niyə işsiz qalıb?* SİA (Səs İnformasiya Agentliyi), 2 mart 2023. https://sia.az/az/news/social/1038973.html
12. Yaqublu, Ş. (2025). *Prezident İlham Əliyevin gənclərin hərtərəfli inkişafına hesablanmış dövlət siyasəti.* Aktualinfo.az, 20 dekabr. https://www.aktualinfo.az/news/prezident-ilham-eliyevin-genclerin-herterefli-inkisafina-hesablanmis-dovlet-siyaseti

Daxil oldu: 10.01.2026
Qəbul edildi: 13.04.2026